# Qarşılıqlı əlaqələr çoxşaxəli şəkildə inkişaf edir

**"Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində Azərbaycan-Pakistan münasibətləri üst səviyyələrdə, çoxşaxəli və effektiv şəkildə davam etdirilir. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana dövlət səfəri iki qardaş ölkə arasında münasibətlərin daha da möhkəmlənməsinə təkan verəcək".**



Bunu qəzetimizə Milli Məclisin deputatı Sevil Mikayılova deyib. O bildirib ki, tarix boyu dostluq və qardaşlıq prinsiplərinə sadiq qalan Azərbaycan və Pakistan beynəlxalq münasibətlərdə eyni mövqeyi tutur, bölgədə və dünyada sülhün, sabitliyin qorunması üçün böyük addımlar atır.

S.Mikayılova qeyd edib ki, Pakistan və Azərbaycan beynəlxalq təsisatlar çərçivəsində hər zaman bir-birini dəstəkləyən dövlətlərdir: "Pakistan Qarabağ münaqişəsi dövründə Azərbaycanın haqlı mövqeyini dəstəkləyən azsaylı ölkələrdən biri olub və İkinci Qarabağ müharibəsində də bu dəstək açıq, şəffaf şəkildə ifadə edilib. Eyni zamanda Azərbaycan da beynəlxalq arenada Pakistanın mühüm maraqlarını nəzərə alır, qardaş ölkənin haqlarını qorumaq istiqamətində siyasi dəstəyini ifadə edir".

Deputat xatırladıb ki, Baş nazir Məhəmməd Şahbaz Şərifin Azərbaycana dövlət səfəri çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə biznes-forumu keçirilib. Bu forum iki ölkə arasında tərəfdaşlığın iqtisadi sahədə daha da genişləndirilməsi məqsədi daşıyır. Ticarət və sərmayə qoyuluşu üçün müsbət addımlar atılmaqla yanaşı, iki ölkə öz biznes icmaları arasındakı əlaqələri daha da dərinləşdirmək niyyətindədir. Pakistanın Baş nazirinin səfəri çərçivəsində imzalanan sazişlərin sayı 10-dan artıq oldu. Bu razılaşmalar iki ölkənin iqtisadiyyatı, ticarəti, sərmayə qoyuluşu və energetika sahələrini əhatə edir və strateji tərəfdaşlıq üçün möhkəm bünövrə yaradır.

S.Mikayılova əlavə edib ki, Azərbaycan və Pakistan arasındakı əməkdaşlıq sahələrindən biri də müdafiə sənayesidir: "Pakistan öz hərbi sənayesini ciddi şəkildə inkişaf etdirmiş ölkələrdəndir və Azərbaycan da bu istiqamətdə qardaş ölkənin imkanlarından aktiv şəkildə istifadə edir. Azərbaycan müdafiə sənayesini gücləndirərək, müxtəlif ölkələrə silah-sursat ixrac edir. Pakistanla qurulacaq yeni müdafiə sənayesi işbirliyi bu potensialı daha da artıracaq".

İki ölkə arasındakı sərmayə və energetika tərəfdaşlığından bəhs edən deputat vurğulayıb ki, hazırda Azərbaycan Pakistan iqtisadiyyatına 2 milyard dollardan artıq sərmayə qoymağı planlaşdırır. Sərmayə qoyuluşu çərçivəsində konkret sahələr müəyyən edilir və bu istiqamətdə həyata keçiriləcək addımlar hazırda razılaşdırılır. Energetika sahəsində də Pakistan-Azərbaycan tərəfdaşlığı çox ümidvericidir. Pakistan Azərbaycandan maye qaz təminatını artırmaq niyyətindədir və bu istiqamətdə tərəflər real addımlar atır.

Deputat bildirib ki, Azərbaycan və Pakistan arasındakı dostluq, qardaşlıq və tərəfdaşlıq bu səfərin nəticəsində daha da güclənib. Həm siyasi, həm iqtisadi, həm də müdafiə sahələrində atılan yeni addımlar iki qardaş dövlət arasında əlaqələri daha da çiçəkləndirəcək.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan.- 2025.-27 fevral (№44).- S.7.